# HARDASAN, AY SUBAYLIQ

***3 pərdəli komediya***

**Iştirak edirlər:**

***Qüdrət Səda*** – orkestrin bədii rəhbəri, akkordeonçu
***Ayna*** – orkestrin solisti
***Rəşid*** – pianoçu
***Gülyanaq*** – kontrabas çalan
***Novruzəli*** **-** baritonçalan
***Nora*** – orkestrin ikinci solisti
***Təbil vuran***
***Saksafonçu***
***Gitaraçı***
***Rəqs edən qızlar və başqaları***

## *BİRİNCİ PƏRDƏ*

**Pərdə açılarkən estrada orkestri çalır. N o r a eybəcər bir mahnı oxuyur. Balet dəstəsi rəqs edir. Mahnı sona çatanda R ə ş i d piano arxasından qalxır.**

R ə ş i d. Bəsdir, bu mahnıya oxşamazı daha çalmaq istəmirəm!

Q. S ə d a. Bu nədir? Sən kollektivə qarşı hörmətsizlik edirsən?

R ə ş i d. Mən kollektivimizin nüfuzunu həmişə yüksək tuturam. Deyin kimə lazımdır bu eybəcər qərb tvisti?

Q. S ə d a. Rəşid! Xahiş edirəm mənə musiqi dərsi verməyəsən. Nə vaxt səni bədii rəhbər qoyarlar, onda orkestrin repertuarını dəyişərsən.

N o r a. Bilmirəm bu mahnının nəyi bəzi – bəzi adamların xoşuna gəlmir.

T ə b i l v u r a n. Biz də bilmirik bu mahnının nəyi bəzi – bəzi adamların xoşuna gəlmir.

Q. S ə d a. *(onun üstünə çımxırır).* Hər kəs öz adından danışsa yaxşıdır. "Biz" deyəndə sən daha kimi nəzərdə tutursan?

G i t a r a ç ı. *(Yerindən qalxır).* Məni! Mən də o fikirdəyəm ki, siz orkestri belə -belə şeylərdən təmizləməlisiniz. Bu cür eybəcər rəqslərlə, mənasız musiqilərlə biz gənclərimizin tərbiyəsini poza bilərik.

N o r a. Gənclərimizin tərbiyəsi. Guya onunla biz məşğul olmalıyıq.

N o v r u z ə l i. Əşi, adamda insaf yaxşı şeydir. Noranı niyə gözümçıxdıya salmısınız?

S a k s a f o n ç u. Mayestro, məncə kollektivin səsini eşitmək ümumi işin xeyrinədir.

Q. S ə d a. Ay canım, keçən dəfə özünüz gördünüz ki, Noranın ifasında "No–ra–lə-lu"nu da, bu mahnını da camaat necə alqışladı.

R ə ş i d. Camaat Aynanın oxuduğu "Azərbaycan", "Çırağban Xəzər", "Məhəbbət" mahnılarını alğışladı. Noraya əl çalanlar bir yığın zövqsüzlər idi.

G ü l y a n a q. Novruzəli səhv edirsən. Rəşid haqqına danışır. Nora hər dəfə o "No–ra–lə-lu"nu civildəyəndə mənim ətim tökülür.

N o v r u z ə l i. Necə? Sənin də xoşuna gəlmir? Onda sözümü geri götürürəm. Demişəm, deməmiş olum. Mən Gülyanaq Manaflı xanımın sözü ilə yüz faiz şərikəm.

G ü l y a n a q. Novruzəli, sənin öz fikrin yoxdur?

N o v r u z ə l i. Mən sənin zövqünə inanıram. Hər nə desən iki yüz faiz şərikəm.

N o r a. Mayestro, bu fırıldaqlar mənə aydındır. Rəşidin çalışdığı odur ki, Nora qastroldan qalsın. Cazın müvəffəqiyyətləri onun nişanlısı Aynanın adına yazılsın.

R ə ş i d. Səhv edirsən! Ayna onsuz da sənin mahnılarını oxumaz.

N o r a.  Axı oxuya da bilməz!

G ü l y a n a q.  Bax, canınçun doğru deyirsən. Avtomobil siqnalı kimi səs çıxarmaq hər adamın işi deyil. Onu ancaq sən bacararsan.

Q. S ə d a.  Madam ki, tamaşaçılarımız arasında Noranın mahnılarını xoşlayan gənclərimiz var, deməк, biz onların da zövqünü nəzərə almalıyıq.

R ə ş i d.  *(irəli çıxır).* Biz orkestrin repertuarını tək-tük meşşanların səviyyəsinə endirə bilmərik!

N o r a.  A... meşşan adam deyil?

G ü l y a n a q.  Xeyr, meymundur.

N o v r u z ə l i.  Mən, Gülyanaq Manaflı xanımın sözü ilə yüz faiz şərikəm.

Q. S ə d a.  Kəsin mübahisəni! Məşqi davam etdiririk! Nora! İiii!

**Musiqi çalır.**

N o r a.  Söndürməyin işıqları,
Bağlamayın restoranı.
Olmayıbdır gecə yarı,
Qoyun hələ rəqs edirəm.
Bax, mən belə rəqs edirəm.
Çox içmişəm, məst olmuşam,
Bu dünya bir əyləncədir,
Əylənməkçün doğulmuşam.
Gülə-gülə rəqs edirəm.
Bax, mən belə rəqs edirəm.

**Mahnının axırında Novruzəli xaric not çalır.**

Q. S ə d a. *(hirslənir).* Noruzəli!

N o v r u z ə l i.  Bəli.

Q. S ə d a. Sənə yüz dəfə demişəm ki, çalanda ağlın başında, gözün notda, fikrin özündə olsun.

N o v r u z ə l i.  Baş üstə.

G i t a r a ç ı.  Mayestro, sizdən çox xahiş edirəm, yerimi dəyişin. Mən Novruzəlidən uzaqda dayanım.

S a k s a f o n ç u.  Onunla iş düzəlməz. Novruzəlini bizdən uzaqlaşdırmaq lazımdır.

N o v r u z ə l i.  Sözünüzdən belə çıxır ki, bu orkestrdə bariton artıqdır.

S a k s a f o n ç u.  Bariton yox, sənin kimi baritonçu artıqdır.

Q. S ə d a.  Sakit olun.

S a k s a f o n ç u. Mayestro, yoldaşlar şahiddirlər, dünən işdən sonra bax bu, Novruzəliyə nə qədər dil tökdüm ki, bir-iki saat qal səninlə məşq eləyim, razı olmadı, üstəlik mənə lağla nə cavab versə yaxşıdır? Deyir, sən natrum xlora gedəndə, mən natrum xlordan gəlirdim. Yəni, mayestro, duzdan.

G ü l y a n a q. Novruzəli, o natrum xlordan bir az da Noraya ver, duzlu oxusun.

N o r a. . Mayestro, Məni təhqir elədilər.

Q. S ə d a. Antrakt! Novruzəlidən başqa hamınız gedə bilərsiniz.

**Çalğıçılar dağılırlar. Novruzəli ilə Q. Səda dayanır. Q. Səda Novruzəlinin baritonunu, sonra isə onun başını tıqqıldadır. Hər ikisindən oxşar səslər çıxır.**

Q. S ə d a. Eşitdin?

N o v r u z ə l i. Bəli, arifə bir işarə kifayətdir.

Q. S ə d a. Heç boyundan utanıb xəcalət çəkirsən?

**Novruzəli dəsmalını çıxarıb boynunun tərini və bığlarını siləndə asqırır.**

N o v r u z ə l i. Bağışlayın, mayestro, dəsmalla siqareti bir cibimə qoymuşam... bayaq baritonda elə ona görə... *(Bir də asqırır.)*

Q. S ə d a. Ceyran, düzünü de, bügünkü məşqdə neçə xoruz buraxmısan?

N o v r u z ə l i. Xoruz, yəni xaric not?

Q. S ə d a. Bəli.

N o v r u z ə l i. *(hesablayır).* Birini “do” da, birini də “mi” yə keçəndə.

Q. S ə d a. Bəs “si bemol”da neylədin?

N o v r u z ə l i. Düzdür, üç kərə. Ancaq mayestro onlardan biri, necə deyərlər, beçə idi...

Q. S ə d a. Biri də dəyirman xoruzu, eləmi?

N o v r u z ə l i. Düzdür, doğru sözə can qurban, boynuma alıram.

Q. S ə d a. Atan sağdır?

N o v r u z ə l i. Atam, allah ölənlərinizə rəhmət eləsin, gedib. Atalığım hələ durur.

Q. S ə d a. Vucdanın var?

N o v r u z ə l i. Gərək olsun.

Q. S ə d a. Səni and verirəm ölən atanın goruna, qalan atalığının canına, bir də əgər varsa, öz vicdanına. De görüm, o iki xoruz, bir beçə kimə lazımdır? Orkestrin bədii rəhbəri mən Qüdrət Sədaya, estradanın baritonçalanı sən Novruzəliyə, yoxsa tamaşaçılara?

N o v r u z ə l i. Düzünə qalsa, heç kimə, hamısı artıq şeylərdir.

Q. S ə d a.  Daha sənə sözüm yoxdur. *(Əsəbi halda gəzinir, sonra gəlib yenə onun qarşısında dayanır.)* Sən restoran bıçağı kimi kütsən! Məni başa sal görüm, son zamanlar konsertlərə hazırlıqsız niyə gəlirsən?

N o v r u z ə l i. *(baritonu ona uzadır.)* Mayestro, vurun kəlləmə, öldürün məni, Təqsirkaram.

Q. S ə d a.  Hayıfdır.

N o v r u z ə l i.  Başım?

Q. S ə d a.   Xeyr, bariton! Hər dəfə çalanda sən gah əlimdən dala qalırsan, gah da qabağa qaçırsan. Solistləri çaşdırırsan, düzgün oxuya bilmirlər. Kollektivimiz qastrola hazırlaşır.  Beş – on gündən sonra orkestrimiz xalqın qarşısında öz qüvvəsini nümayiş etdirəcək. Səni bu kökdə adam arasına çıxarmaq olarmı? Əlbəttə, yox!

N o v r u z ə l i. Niyə? Sir- sifətimin orkestrovkası xoşunuza gəlmir?

Q. S ə d a.   Xeyr, sənin adamlığın! Ailədə, məişətdə elədiyin pozğunluqlar! Mənim bu gün - sabah əlli yaşım tamam olur, hələ bir dəfə də evlənməmişəm. Səninsə evlənib - boşanmaqdan başın ayılmır. Novruzəli olan bəndə neçə yol arvad boşayıb, ev-eşikdən çıxar? Neçə yol gəlib idarədə stolların üstündə yatar?

N o v r u z ə l i. Haqlısınız... haqsızam.

Q. S ə d a.   Elə ona görə də sər-kələfi itirmisən. Yadırğamısan, çala bilmirsən. Xəbərin varmı killektivin arasında adına nə deyirlər?

**Bu vaxt onların arasından keçən təbilvuran ayaq saxlayır.**

T ə b i l v u r a n. Xoruzburaxan, Novruzəli. (O pultdan not kağızını götürüb gedir.)

Q. S ə d a.  Eşitdin?

N o v r u z ə l i. Lap yerindəə deyirlər mənə! Axır  vaxrlar öz üzərimdə işləmirəm. Dodaqlarım xamlaşıb, ambajura yatmır. Yuxarı notları götürəndə xoruzlayıram. Qərəz... tək özüm bilirəm məni bu kökə salan nədir?!

Q. S ə d a.  Deyəsən, səbəbini biz də bilək

N o v r u z ə l i. Xeyr! Onu soruşmayın, mayestro, içim özümü yandırır, bayırım özgələri.

Q. S ə d a.  Demək, təsdiq edirsən ki, gələcəkdə belə işlər yaramaz?

N o v r u z ə l i. Təsdiq edirsən də sözdür? Bəli...

Q. S ə d a.   Bəli? Onda elə isə...
Bir ərizə yaz öz xoşunla getginən!
Sabahdan orkestri tərk etginən!

N o v r u z ə l i. Mayestro, eşit mənim sözümü,
Çalışaram, düzəldərəm özümü.

Q. S ə d a.  Çalışmağın əbəsdir,

Yoruldduq, daha bəsdir!
Gör neçə vaxtdır ki, yaman bezmişik,
Şıltaq uşaq tək nazına dözmüşük.

N o v r u z ə l i. Nöqsanıma yummamışam gözümü,
Çalışaram, düzəldərəm özümü!

Q. S ə d a. Çalışmağın əbəsdir,
Yorulduq, daha bəsdir!
Sənin kimi çalğıçıdan kar aşmaz...

N o v r u z ə l i. Belə baritonçu orkestrə yaraşar...

Q. S ə d a. Belə baritonçu orkestrə yaraşmaz. Ceyran, sən çalış sabah ərizəsiz yanıma gəlmə.

N o v r u z ə l i. Soruşmaq ayıb olmasın, ərizəmdə nə yazım?

Q. S ə d a. Yaz ki, məni öz xahişimlə işdən azad edin.

N o v r u z ə l i. Lazım gəlsə ərizə yazaram, lap işdən də çıxaram. Ancaq tələsməyin. Onu da bilin ki, mən istəsəm yenə də gəlib öz yerimə girərəm.

Q. S ə d a. Xeyr! Girə bilməzsən!

N o v r u z ə l i. Girə bilərəm!

Q. S ə d a. Dedim ki, girə bilməzsən!

N o v r u z ə l i. Mən də dedim ki, girə bilərəm! *(Bərkdən.)* Mən şampam probkası deyiləm ki, çıxdığım yerə girə bilməyim! *(Gedir.)*

Q. S ə d a. *(fikirli).* Bu nə akkord idi o mənə vurdu, başa düşmədim?

N o r a Sinəsi-kürəyi açıq gödək paltarda oxuya-oxuya gəlir.

N o r a. Mayestro, elə mən sizi təklikdə görmək istəyirdim. Bayaq adamların arasında deyə bilmədim.

Q. S ə d a. Buyur.

N o r a. Daydayımdan sizə salam.

Q. S ə d a. O da sağ olsun, sən də sağ ol. Necədir kişinin kefi?

N o r a. Əla! Söz var bu yaxınlarda vəzifəsini dəyişəcəklər.

Q. S ə d a. Dəyişəcəklər?

N o r a. Bəli, bir pillə də yuxarı qalxacaq.

Q. S ə d a. Təki olsun. Yaxşı, bunlar bir yana, bəs dünən məşqə niyə gəlməmişdin?

N o r a. Bülletendəyəm, mayestro. Soyuqlamışam, səsim yerində deyil.

Q. S ə d a. Sənin səsin nə vaxt yerində olub? *(Kənara)* Sən ölməyəsən, bəzi həkimlərin işi-gücü elə bizim artistlərə bülleten yazmaqdır. Bu toylarda hansı oxuyanımıza rast gəlirsən, bülletendədir. Leyli bülletendədir, Məcnun bülletendədir, Kərəm bülletendədir, indi Nora da bülletendədir?!

N o r a. Haqqına danışmırsınız, mayestro. Axı o Məcnun yazığa soyuq dəyəndən sonra, Leyliyə necə aşiq olsun?

Q. S ə d a. Ay qız, Kərəmi demirəm, üst-başı qalın idi, Məcnun yazıq dəli-divanə olub, illərlə ayaqyalın, başıaçıq çöllərdə yaşardı, nə bir yol qrip tutdu, nə temperaturasını ölçdürdü, nə də bülletenə çıxdı. Bilmirəm bizimkilərə nə olub? Fuff eləyən kimi soyuqlayırlar. *(Onun geyiminə diqqət yetirir.)* Bu nə cür paltardır geyinmisən?

N o r a. Təzə fransız modasıdır – "tülpantellor"!

Q. S ə d a. Mən adını soruşmuram. Bu tikilib qurtarıb, yoxsa yarımçıq geyinib gəlmisən?

N o r a. *(qəhqəhə çəki*r). Yarısı dərzidə qalıb... Mayestro, mən qastrola getməyə indidən hazırlaşıram. Elə ona görə gəldim paltarıma baxasınız.

Q. S ə d a. Belə "tülpantellor"da adama soyuq da dəyər, hələ üstəlik sətəlcəm də olar. Xətrinə dəyməsin, deyəsən, qastrolda oxuyacağın mahnıların bir-ikisini başqa şeylə əvəz edəcəyik. Bilirsən... gərək...

N o r a. Fikriniz aydındır. Bu oxun kimlər tərəfindən atıldığı məlumdur. Ancaq onu bilmirəm, bədii rəhbər sizsiniz, yoxsa Rəşid. Yaddan çıxarmayın, Noradan iki dənə deyil, bir dənədir. Sonra məni çıraqla da axtarsanız tapa bilməyəcəksiniz. Mən orijinal bir solist kimi, sizin estradaya təzə manera gətirmişəm. Sabah öz repertuarımla hansı caza getsəm, məni əlləri üstdə gəzdirərlər. Siz Rəşidin, Aynanın sözü ilə oturub – dursanız, bu orkestri çox geri çəkəcəksiniz!

Q. S ə d a. Ceyran, mən başqalarının çaldığı hava ilə oynayan deyiləm. Mənim öz zövqüm var.

N o r a. Ona da bələdəm. Sizin zövqünüzü ancaq Gülyanaq kimilər oxşaya bilər.

Q. S ə d a. Bu nə sözdür!

N o r a. Özünüzü bilməməzliyə qoymayın. Gülyanaqla olan məhəbbət dastanınızı oxumasaq da eşitmişik.

Q. S ə d a. Əvvala bizim dastanlıq heç bir məcaramız olmayıb. Doğrudur, cavan vaxtlarımda ona meylim vardı. Lakin ürəyimi açmaq istəyəndə xəbər tutdum ki, gecikmişəm. O ərə gedib. Vəssalam!..

N o r a. *(lağla)* İndi də gec deyil, Gülyanaq ərindən ayrılıb. Özü də səhərdən axşamacan gözünüzün qabağında. Niyə dayanmısınız.

Q. S ə d a. Nə isə, söhbəti dəyişmək lazımdır.

N o r a. Mayestro, kukla kimi podruqalarım var. Hansı zövqünüzə yatsa alım sizin üçün.

Q. S ə d a. Mənə kukla-mukla lazım deyil *(Gedir.)*

N o r a. *(ardınca).* "Mənə kukla lazım deyil!" Gərək səni bu orkestrdə öz nazımla elə oynadam ki, mənə afərin deyəsən. *(Gedir. Rəşidlə Ayna gəlir.)*

R ə ş i d. Ayna, təəccüblənmə. Novruzəlinin arvad alıb – boşamaqdan vaxtı haradaydı ki, öz işi lə məşğul olaydı? Hər dəfə də evlənəndə öz xeyrini güdür.

Keçən il də baletimizdə olan qızın dalınca çox süründü. Eşitmişdi ki, lotoreya bileti maşın udub. Könlündən avtomobildə gəzmək keçirdi.

A y n a.  Bəs axırı necə qurtardı?

R ə ş i d. Qızı yoldan çıxarıb razılığını alandan sonra məlum oldu ki, o minik maşını yox, paltaryuyan maşın udub. Elə həmin gün əlvida deyib, ondan üz döndərdi. *(Ayna gülümsəyir.)* Niyə gülürsən, Ayna?

A y n a. İndi mənə hər şey aydındır. Arada bir Novruzəli məni də gözaltı eləmişdi.

R ə ş i d. Demək sənə də vurulmuşdu?

A y n a.  Mənə yox, maaşıma vurulmuşdu.

R ə ş i d. Bəs sən ona demədin ki, nişanlım var?

A y n a. Ayıbdır, Rəşid eşidərlər.

R ə ş i d. Mən heç kəsdən çəkinmirəm. Odur, uşaqlar da gəlir. Bu dəqiqə məsələni hamıya açıb danışacağam.

**T ə b i l v u r a n, s a k s f o n ç u  və g i t a r a ç ı gəlirlər**

S a k s a f o n ç u. *(yoldaşlarına).* Göz dəyməsin, axır vaxtlar Rəşidi Aynasız, Aynanı Rəşidsiz görmürük.

A y n a. Sizdən nə gizlədim, baxın, o Aynanın barmağında parıldayan üzük mənim nişanımdır.

A y n a  Rəşid!

R ə ş i d. Utanma Ayna, deyəcəyəm.

R ə ş i d. Qoy hamı bilsin ki, sənsən, Aynacan,
Xoş arzum, istəyim, pənahım mənim.
Göz görübdür, könül sevibdir, inan.
Nədir bu sevdada günahım mənim?
Sızlatma qəlbimi gəl, xısın-xısın
Gülümsə bəxtimə işıq saçılsın,
Istərəm nəğmənlə daim açılsın,
Ilk  bahar ətirli sabahım mənim.

G i t a r a ç ı. Sağ ol. Ay Rəşid!  Sizi ürəkdən təbrik edirik.

T ə b i l v u r a n. Bax... Nişanı bizdən xəlvəti etmisiniz. Ancaq toyunuza çağırmasanız, inciyərik ha...

S a k s a f o n ç u. Tamada da mən olacağam.

R ə ş i d. Ayna ilə məsləhətləşmişik. Toyumuzda elə öz orkestrimiz çalacaq.

A y n a. *(kənara baxır).* Rəşid, bir ora bax. Novruzəli oğru pişik kimi necə boylanır. Yəqin ki, Gülyanağı axtarır.

R ə ş i d. Gülyanağı?

A y n a. Bəli, bizim kontrabasçalan Gülyanaq Manaflını. Xəbərin yoxdur? Novruzəli indi də ona aşiq olub.

R ə ş i d.  Sən nə danışırsan ay qız? Gülyanaq dul qadındır. Iki uşaq anasıdır. Olmaya bu sevdada da bir təmənnası var?

A y n a. Rəşid, Gülyanağın cəmi bir oğlu var. Balaca qız Səltənət onunku deyil. Qardaşı uşağıdır. Amma hamı onları ana-bala bilir.

R ə ş i d. Biz Gülyanağı ayıltmalıyıq, yazıqdır.

G i t a r a ç ı. Lap sən deyən yazıqlardan da deyil. Lazım gəlsə, o, beş Novruzəli kiminin aşının suyunu verər.

T ə b i l v u r a n. Yox, dadananla quduran bir olar. Novruzəlini özbaşına buraxmaq olmaz. Bu barədə biz mütləq  bir tədbir görməliyik.

R ə ş i d.  Uşaqlar bilirsiniz nə var? Gəlin hamımız çalışaq ki, Novruzəlinin onunla evlənməsi baş tutsun.

A y n a. Rəşid, sən zarafat edirsən, nədir?

R ə ş i d. Lap ciddi sözümdür. Ssss... Novruzəli gəlir. Gedək hər şeyi sizə başa salım.

**Gedirlər. N o v r u z ə l i  gəlir. Pasportunu çıxarıb baxır.**

**N o v r u** z ə l i. Bu mənim pasportum, bu da mənim mübarək şəklim. Hardasan ay subaylıq? Sən belə təzədən xoş gəlib, səfa gətirmisən! Mənim ağlımca xeyir-bərəkətsiz arvad almaq, subaylığı keçi qiymətinə satmaq deməkdir. O, gün ki, ZAQS-da kəbin kağızını imzalayıb küncünə möhür basdılar, ürəyimdəki məhəbbətin axırına da yekə bir nöqtə qoydular. Fikirləşirdim ki, Sənubərin atası yağlı yerdəndir. Qızı əldən buraxmaq olmaz. Elə orada uduzdum. Qayınatam fərasətsiz də elə bil mənə bənd imiş. Qızına ilişən kimi özünü də işdən götürdülər. Arzularım alt-üst oldu. Ancaq bu dəfə gərək zirək tərpənəm. Zarafat deyil, gözünə döndüyüm Manaflı xanım boşandığı professor ərindən balaca qızına görə ayda iki yüz manat aliment alır. Hələ bu gəlhagəli on altı il davam edəcək.

**R ə ş i d gəlir**

R ə ş i d.  Novruzəli, nə var, öz-özünlə danışırsan?

N o v r u z ə l i. (köks ötürür). Danışmayım, neyləyim? İndicə Qüdrət Səda abrımı ətəyimə bükdü.

R ə ş i d. Elə bu?

N o v r u z ə l i. Bu azdır? Qorxuram orkestrdə məni sıxışdıra, bütün planlarım darmadağın ola.

R ə ş i d. Hansı planların?

N o v r u z ə l i. Mətləb nazikdir, dərdimi təzələmə, Rəşid.

R ə ş i d. Bəlkə mən sənin dərdinə çarə eləyəcəyəm.

N o v r u z ə l i. Onu bacarmazsan, dərdimin çarəsi başqasındadır.

R ə ş i d. Kimdədir? Hə? Dinmirsən? Istəyirsən, mən deyim?

N o v r u z ə l i. *(qımışır)* De.

R ə ş i d. O, kontrabasçalan nazlı xanımda. Barmaqları ilə ürəyinin tellərini qıdıqlayan o afətdə. Qıyğacı baxışları ilə sənə xoruz buraxdıran...

N o v r u z ə l i. De görüm sən bunu haradan bilirsən?

R ə ş i d. Mən də, Ayna da sənin sevgi məcarandan xəbərdarıq. Ancaq...

**G ü l y a n a q l a A y n a pıçıldaşa-pıçıldaşa gəlib onların qabaqlarından keçirlər**

N o v r u z ə l i. Gördün? Məni yandırıb, cızdağımı çıxardan o Manaflı xanıma fikir verdin? Yanımdan reaktiv təyyarə kimi necə vıyıltı ilə ötdü? Onun nəzərində mən adam deyiləm, taxta-şalbanam. Bəli şalbanam.

R ə ş i d. Açığını bilmək istəyirsənsə, Gülyanaq sənin sevginə etiraz eləyir.

N o v r u z ə l i. Etiraz eləyir? Niyə?

R ə ş i d. Deyir, mən bilmirəm Novruzəli hansı yuvanın quşudur.

N o v r u z ə l i. Əvvala mən quş deyiləm, adamam! İkincisinə qalanda, tanımır, al ver ona tərcümeyi – halımı oxusun. *(Novruzəli Rəşidə bir kağız çıxarıb verir. Rəşid kağızı oxuyur.)*

R ə ş i d. Mənim ilk və son məhəbbətim Xeyransa...

N o v r u z ə l i. *(Tez kağızı onun əlindən alır).* Eh... O deyil.

R ə ş i d. Yox, Novruzəli bu məsələdə tərcümeyi – hal kömək eləməz. Gülyanağa sənin üçün bir nəfər zəmanət verməlidir.

N o v r u z ə l i. Əmanət? Yəni üzük istəyir?

R ə ş i d. Əmanət yox, zəmanət! Arada etibarlı bir adam olmalıdır.

N o v r u z ə l i. Yaxşı, səncə Manaflı xanım üçün elə etibarlı adam kimdir?

R ə ş i d. Özü deyən ya mən, ya Ayna. Hansımız ona him eləsək ki, razı ol, o dəqiqə əriyib muma dönəcək.

N o v r u z ə l i. Sizə qurban olum, deyin ərisin də... Deyin, muma dönsün də. Axı mən yazıq şam kimi əriyib qurtardım. Atalığımın canı üçün, o Gülyanağın məhəbbəti şingilə olub yapışıb ürəyimin mərkəzinə, ha dartıram qopara bilmirəm. *(Düşünür.)* Yox, bu al-ver baş tutmayacaq, Rəşid.

R ə ş i d. Nə üçün?

N o v r u z ə l i. Onunçun ki, Ayna mənim tərəfimi saxlamaz. O, qız məni görəndə elə bil ki, qulyabanıya sancaq göstərirlər.

R ə ş i d. Ay Novruzəli, ölməmişəm ki. Mən Aynaya bircə işarə edəndən sənra o Gülyanağı dilə tutub yumşaldacaq. Ondan sonra sənin ürəyinə buz kimi sərin, bal kimi şirin məhəbbət şirəsi süzüləcək. Olacaqsan nə?

N o v r u z ə l i. Dəm. Xumar... Sərxoş... Atalığımın canı üçün, elə danışırsan ki, ağzım sulanır.

R ə ş i d. İndi de görüm ayağında arvad - zad yoxdur ki?

N o v r u z ə l i. Arvad yoxdur, zad var...

R ə ş i d. Başa düşmədim.

N o v r u z ə l i. Atobba üçün Sənubərə aliment verməliyəm.

R ə ş i d. *(düşünür)* Deməli Sənubəri də boşadın.

N o v r u z ə l i. Məni qınama, ay Rəşid. Arvad qarpız kimi şeydir, alnda bilmirsən necə çıxacaq...

R ə ş i d. Yavaş, Gülyanaqla Ayna gəlirlər!

N o v r u z ə l i. Bunlara nə olub belə?! Bayaqdan əkiz bacı kimi cüt gəzirlər.

R ə ş i d. Aynanı Gülyanağa mən qoşmuşam. Tapşırmışam arvadı razı salsın.

N o v r u z ə l i. Sağ ol, Rəşid! *(Ağlamsınır.)* İndi bildim ki, əsl dostsan. Mənim üçün can yandırırsan.

R ə ş i d. Gedək!

**Gedirlər. A y n a ilə G ü l y a n a q gəlir.**

A y n a. *(ehtiyatla).* Gülyanaq bacı, ancaq bu məsələdən Qüdrət Səda xəbər tutmamalıdır. Yoxsa hər şey pozula bilər. Bir-iki dəfə görüşüb danışarsan, razılığını verərsən...

G ü l y a n a q. Yaxşı, başa düşdüm. Demək, Novruzəəlinin mənə yanaşmaqda da öz kələyi varmış?! Heç eybi yoxdur. Mən onu zurna-qavalsız bir oynadım, bir oynadım ki! Siz də tamaşasına gəlin!

**Zəng çalınır**

A y n a. Gedək, məşqin vaxtıdır.

G ü l y a n a q. Həm məşqin vaxtıdır, həm də, eşqin vaxtıdır.

*(Yuxarı qalxırlar. Musiqiçilər yerlərini tutur. Q.Səda qabağa çıxır.)*

Q. S ə d a. Hazırlaşın, indi də o biri solistimizi dinləyəcəyik. “Məhəbbət mahnısı”nı çalırıq. Ayna yaxın gəl. İiii!

**Orkestr çalır.**

A y n a. Vurulmuşam bir oğlana,
Yanır qəlbim məhəbbətdən,

Onun zülmü mənə xoşdur,
Dünyada hər səadətdən.

Könlüm evin o yarıbdır,
Ürəyimi qoparıbdır,
Saf eşqimi aparıbdır,
Zövq alırmı bu qarətdən?

Sevgi yoxdur etibarı,
Baxmır oğlan mənə sarı,
Dindirsəydi bir yol barı,
Qurtarardım əziyyətdən.

**Novruzəli çevrilib Gülyanağı süzür Gülyanaq da ona baxır. Novruzəli özünü itirir. Hamı çalıb qurtardıqdan sonra onun baritonu yenə səslənir. Çalğıçılar gülüşürlər.**

Q. S ə d a. *(Aynaya).* Yaxşıdır.

N o v r u z ə l i. Adamın allahı var, min dəfə Noradan şirin oxuyur.

Q. S ə d a. Heç olmasa sən sus!

G ü l y a n a q. Nə üçün, Novruzəli qardaşın səsini alıblar?

N o v r u z ə l i. Xahiş edirəm aşağıdan tərifi boğmayın. *(Gülyanağa.)* Sən də daha mənə qardaş demə.

Q. S ə d a. Yenə başladınız? *(Antrakt.)*

**Musiqiçilər gedirlər. Rəşid Novruzəlini pərdə qabağına çağırır.**

R ə ş i d. Gördün, Gülyanaq birdən – birə valı necə dəyişdi?

N o v r u z ə l i. Əşi, gördün dedin, qoydun! Üzümə baxmaq istəməyən Manaflı xanım sinəsini qabağa verib məni müdafiə edirdi. Sənsiz bir günüm olmasın.

N o v r u z ə l i. Sən kömək ol, ay Rəşid,
Dərdimə yan bir mənim.
Gətir yola, sən allah,
Gülyanağı, evlənim.

R ə ş i d. Sirr aramızda qalsın,
Heç kəsə bir söz demə.
Düzəldərəm səninçün,
Novruzəli qəm yemə.

N o v r u z ə l i. O, Gülyanaq bir çıraq,
Mən ona pərvanəyəm.
Atalığımın canıyçün,

Lap dəli-divanəyəm.

R ə ş i d. Daha niyə durmusan? Odur, Gülyanaq tək-tənha oturub məşq eləyir. Get ürəyini aç. Ancaq özünü qabiliyyətli apar ha.

N o v r u z ə l i. O, barədə təcrübəliyəm. Arxayın ol, ay Rəşid.

**O biri tərəfdən təbilvuran, saksafonçu və gitaraçı çıxırlar.**

Tə b i l v u r a n. *(Rəşidə).* Novruzəəli ilə görüşdün?

R ə ş i d. Görüşdüm.

S a k s a f o n ç u. Danışdın?

R ə ş i d. Danışdım.

G i t a r a ç ı. Getdi?

R ə ş i d. Getdi, ancaq bu dəfə daş qayaya rast gəlib.

**Gülə-gülə gedirlər, pərdə qalxır. Q.S ə d a kabinetindədir. N o v r u z ə l i gəlib qulağını qapıya söykəyir.**

N o v r u z ə l i. Aha! Deyəsən, canan içəridə təkdir.

**Qapını açıb içəri girir. Q.S ə d a görcək özünü itirir.**

Q. S ə d a. Nə xəbərdir belə?! Hürkmüsən?

N o v r u z ə l i. Hə... Yox, elə sizin yanınıza gəlirdim ki,

Q. S ə d a. Ərizəni gətirmisən?

N o v r u z ə l i. *(Ciddiləşir).* Xeyr!

Q. S ə d a. Ceyran, gəl səni burdan keçirim BXŞMB –yə

N o v r u z ə l i. Meşəşənbəyə? Ora haradır?

Q. S ə d a. BXŞMB - Bakı xeyir-şər musiqiçilər bürosu. Canımçün, Ceyran, ömrün keçəcək keflə. Həmişə çalacaqsan toylarda, yubileylərdə, ziyafət məclislərində... Hərdən bir də iş düşəndə dəfn mərasiminə gedəcəksən. Götürəcəksən baritonunu, xətrin necə istəyir, filəyəcəksən. Nə boyda xoruz istəsən buraxacaqsan, özünçün. Toylarda neyləsən sənə güldən ağır söz deyən olmayacaq. O, ki, qaldı yas mərasimində... ölü məlum məsələdir ki, çaldıqlarını eşitməyəcək. Sənin əsas dinləyicilərin olcaq qəbristana toplananlar. Onların da fikri qalacaq rəhmətliyin yanında. Məncə, BXŞMB sənin üçün ən münasib yerdir. Necə bilirsən?

N o v r u z ə l i. Eybi yoxdur, razıyam.

Q. S ə d a. *(Sevincək).* Sağ ol. Bax, bu dəfə xoşum gəldi səndən.

N o v r u z ə l i. Ancaq bir şərtlə, məni yaxşı xasiyyətnamə ilə yola salasınız.

Q. S ə d a. Belə mənim bu gözlərim üstə! Sənə bir xasiyyətnamə verim ki, BXŞMB - də oxuyanlar desinlər ki, bu ceyran zamənəsinin ən mahir baritonçalanıdır.

**Birlikdə çıxırlar. Gülyanaqla Ayna gəlir.**

G ü l y a n a q. Gediblər. Sakitlikdir. Hə, indi mən o Novruzəliyə naz-qəmzə ilə bir hiylə gəlim ki, məhəbbət bağında meyvənin dəymişin qoyub, kalını dərsin. Bəs bu harda qaldı, gəlib çıxmadı? *(Gülür.)* Gedə elə bil günəbaxandır. Ha yana tərpənirəm boğazını uzadıb, gözlərini o yana marıtlayır. *(Q.Səda gəlib qapıdan onun söhbətini dinləyir.)* Bu axşam bir təhər görüşüb razılığımı verəcəyəm. Özünə də deyəcəyəm ki, məni çoxdan sevdiyini bilirəm. Ancaq sən ürəyini açmadığın üçün, mən də yaxın düşməyə utanırdım.

A y n a. Hə, elə de.

G ü l y a n a q. Deyəcəyəm, bizim evlənməyimizə heç kəs rişxənd eləməz. Mən ərsiz arvad, sən də arvadsız kişi. Ömrümüzü tənhalıqda çürütməyəcəyik ki.

A y n a. Mən gedim, indi gələr. *(Çıxır.)*

G ü l y a n a q. *(Oxuyur.)* Oğlan mənə bir bax, bax...
Hərdən mənə bir bax, bax...

**Q. S ə d a içəri girir**

N o v r u z ə l i. *(Dəhlizdə görünür. Gülyanağın səsini eşidir).* Odur, Manaflı xanımdır. Məni gözləyir. Onun birinci görüşünə mütləq gül - çiçəklə getməliyəm. *(Gedir.)*

**Q. Səda Gülyanağa qoşulub oxuyur.**

G ü l y a n a q. *(Q. Sədanın səsini eşidib diksinir).* Mayestro, sizsiniz? Mən burada məşq eliyirəm, ey.

Q. S ə d a. *(ikimənalı)* Mən bir söz demirəm ki, ceyran. Əcəb eləyirdin məşq edirdin. *(Gülyanaq utana-utana çıxır.)* Məsələ aydındır: “Bizim evlənməyimizə heç kəs rişxənd eləməz. Mən ərsiz arvad, sən də arvadsız kişi.” Arifə bir işarə kifayətdir. Neyləmək olar, görünür qismətim bu imiş. *(Q.Səda bayaqkı mahnını çalır. Novruzəli görünür.)*

N o v r u z ə l i. Çal, sənin piano dillərində gəzən incə barmaqlarına qurban olum! Çal! Atalığımın canı üçün, mən nə Sənubərin, nə də ondan əvvəlki məşuqələrimin görüşünə gedəndə belə həyəcan keçirməmişdim. Görəsən girim yanına, girməyim? Yox çaşıb hətərən-pətərən danışaram, hürküdərəm cananı.

**Qapının arasından gülün birini içəri salır. Q.Səda gülü görüb heyrətlənir.**

Q. S ə d a. Bıy?! Bu nədir?! Ağ gül! A, burda bir kağız da var ki... *(Açıb oxuyur.)* “Mən...” Başa düşmürəm, necə yəni, mən?! *(Novruzəli ikinci gülü içəri atır.)* Aha, biri də gəldi. Qırmızı gül! *(Kağızı açıb oxuyur.)* “Səni...” Məni qara basır nədir? *(Novruzəli üçüncü gülü içəri atır.)* Dalı elə gəlir ki! Sarı gül. *(Kağızı açıb oxuyur.)* “Sevirəm”! Çox güman ki, bunları yuxuda görürəm. *(Özünü silkələyir.)* Yox, bu yuxu deyil, həqiqətdir. *(Kağızları yan-yana düzür.)* “Mən səni sevirəm”

Q. S ə d a. Dayan, dayan!.. Bu kağızların astar üzündə də nə isə yazılıb. (Oxuyur.) Bu axşam saat 8 – də “Fəvvarə” kafesinin yanında boynumu burub intizarla yolunu gözləyəcəyəm. *(Otağın qapısını açıb ehmalca bayıra çıxır. Heç kəsi görmür.)* Bəli, məni görüşə çağıran odur. Gülyanaqdır. Doğru deyiblər, subaylıq soltanlıqdır, daha bu qədər yox da. *(Gülləri qoxulayır.)* Əlvida, ay subaylıq!

**Tə b i l v u r a n, g i t a r a ç ı, s a k s a f o n ç u içəri girirlər**

Tə b i l v u r a n. Mayestro, bayaq dediniz evə gedəndə sizə dəyək. Gəlmişik.

S a k s a f o n ç u. Belə bir təhər görünürsüz gözümə, mayestro. Xəstə deyilsiniz ki?

Q. S ə d a. Başınıza and olsun, başımı itirmişəm. Bu orkestrə Beni Qudman da gəlsə rəhbərlik eliyə bilməz! Təkcə mənəm sizinlə bacaran. O Novruzəli girinc eləyib məni! Axırı bayaq bir təhər dilə tutmuşam, rədd olub getsin, xeyir - şər musiqiçilər bürosuna.

Tə b i l v u r a n. Baho!.. Bilirsən nə iş görmüsən, mayestro! Belə lap qiyamət.

G i t a r a ç ı. Gərək onun buraxdığı xoruzları çoxdan qoltuğuna verib dalından dəyəydiniz!

S a k s a f o n ç u. Musiqi aləmində zəndeyi-zəhləm gedən iki tip varsa, biri Novruzəlidir, biri Nora! O, əcnəbi xasiyyət qızdan da yaxa qurtarsaydıq, qulağımız dinc olardı.

Tə b i l v u r a n. Keçən ay yerli komitəyə üç arvaddan ərizə gəlib. Boşadığı qadınlar yazırlar ki, Novruzəli aliment verməkdən boyun qaçırır.

Q. S ə d a. Mən yerli komitənin üzvü kimi, qabaqcadan sizə də xəbərdarlıq edirəm. Sonra deməyin Q.Səda kollektivsiz, özbaşına iş görür. Novruzəlini orkestrdən götürmək barədə müdiriyyətə rəsmi yazmışam. Onu işdən pis adla çıxarsaq sakit oturmayacaq. Belə qərara gəlmişəm ki, xüdmani bir yola salmaq məclisi düzəldək. O fərasətsizin barəsində bir-iki kəlmə xoş söz deyək. Özünə də tərifli bir xasiyyətnamə verək, çıxıb getsin. Etirazınız yoxdur ki? Əgər yodursa...

Q. S ə d a. Lap günü sabah
Gərək əyləşək,
Sizinlə birgə

Məsləhətləşək.

T ə b i l v u r a n. Yaxşı tapmısan,
Gözəl fikirdir.
Rədd elə getsin.

H ə r ü ç ü. Rədd elə getsin!

Q. S ə d a. Verdi razılıq,
Bilmirəm niyə?
Getmək istəyir BXŞMB- yə

T ə b i l v u r a n. Ağlına hardan
Gəldi bu tədbir
Rədd elə getsin!

H ə r ü ç ü. Rədd elə getsin!!!

**N o v r u z ə l i gəlib onların danışığını eşidir.**

D ö r d l ü k d ə. Bıy... Novruzəli?! Xöş gördük səni!..

***Pərdə***

## İKİNCİ PƏRDƏ

**“Fəvvarə” kafesinin yanı. N o v r u z ə l i oxuya-oxuya gəlir.**

N o v r u z ə l i. Verdiyi vədə ötüb, gəlmədi canan gecikib.
Qalmışam mən yetim eşqində nigaran, gecikib,
Xəstəyəm, tez yetirin Gülyanağa, rəhm eləsin,
Can verir Novruzəli, dərdinə dərman gecikib.

*(Qırağa çəkilib özünü səliqəyə salır. Q.Səda görünür.)*

Adə! Bu bura neyçün gəldi?!

Q. S ə d a. *(onu görüb dilxor olur)* Başım çıxmır, bu vələdəzüna buralarda nə gəzir?!

N o v r u z ə l i. Bəlkə məni pusur?

Q. S ə d a. Birdən məsələdən xəbər tutub, məni pusur. Abırdan gedərəm ha...

N o v r u z ə l i. *(ona yaxınlaşır).* Oho... Bu sizsiniz?.. Salam!

Q. S ə d a. Bıy... Ceyran, sənsən?.. Əleyküməsalam!

N o v r u z ə l i. Xeyir ola?

Q. S ə d a. Xeyirdir. Bir yoldaş var, onu gözləyirəm. Bəs sən burda nə hərlənirsən?

N o v r u z ə l i. Mənimki də xeyirdir. Bir yoldaş var, onu gözləyirəm.

Q. S ə d a. *(şübhələnir).* Ayıb olmasın, səninki arvaddır, kişi?

N o v r u z ə l i. Kişidir. Özü də lap bığıburma. Siz gözləyən necə?

Q. S ə d a.  Elə mən gözləyən də kişidir. Amma bığsızdır.

N o v r u z ə l i. (gəzişir. Öz-özünə). Bu boyda şəhərdə başqa yer tapmadın?! Ilanın zəhləsi yarpızdan gedər, o da gəlib yuvasının ağzında bitər.

Q. S ə d a. *(gəzışi. Öz-özünə)* Başına yer qəhət oldu?! Elə gərək sən də burda adam gözləyəydin?

N o v r u z ə l i. *(Ona tərəf dönür).* Fürsətkən sizdən bir xahiş eləmək istəyirəm, mayestro.

Q. S ə d a. Ceyran, küçənin ortasında nə mayestro? Sözünü de!

N o v r u z ə l i. Bağışlayın, xahişim odur ki, əgər mümkünsə mənim BXŞMB-yə getməyimi biraz ləngidin.

Q. S ə d a. Niyə?

N o v r u z ə l i. Mayestro, bir vacib işim var. Elə işdir ki, o işə gərək bu işdə əncam çəkəm.

Q. S ə d a. Mümkün deyil, ceyran, hər bir hazırlığın görülüb.

N o v r u z ə l i. Hazırlıq?

Q. S ə d a. Bəs necə. Tamaşa eləyərsən səni BXŞMB - yə nə dəsgahla göndərəcəyəm. *(saatına baxır).* Bu yoldaş gəlmədi, mən gedim.

N o v r u z ə l i. (saatına baxır). Deyəsən bizim yoldaş da gəlmədi. Mən də gedim.

**Bir-birini azdırmaq üçün hər ikisi uzaqlaşır və bir azdan yenə də qayıdırlar.**

Q. S ə d a. Mən qayıtdım ki, bir də baxım, bəlkə gəlib.

N o v r u z ə l i. Elə mən də ona görə geri qayıtdım...

**Sağ tərəfdən t ə b i l v u r a n, g i t a r a ç ı, s a k s a f o n ç u gəlir, onları görürlər.**

S a k s a f o n ç u. Oho... Novruzəli!..

Tə b i l v u r a n.  Bıy, mayestro, burada neyləyirsiniz?

N o v r u z ə l i. S..s..s..

Q. S ə d a.  Heç, mən sizdən soruşuram ki, burda neyləyirsiniz?

G i t a r a ç ı. Biz acımışıq, kafeyə gedirik.

Q. S ə d a. Gedin yeyin, nuşi-can. *(kənara).* Küçədə arvad gözləmək nə pis şeymiş! Eh, Gülyanaq, Gülyanaq. Adam da belə iş tutar?

N o v r u z ə l i. *(kənara).* Eh, Gülyanaq, Gülyanaq! Bir dəfə görüşə çağırdım səni, onda da gözümü yolda qoydun.

**Sağ tərəfdən R ə ş i d l ə  A y n a gəlir. Onları görür.**

R ə ş i d. Oho... Novruzəli?!.

N o v r u z ə l i. S..s..s..

A y n a. Bıy, mayestro, siz burda neyləyirsiniz?

Q. S ə d a. Mən heç soruşmuram, siz burda neyləyirsiniz?

R ə ş i d. Biz elə bir az gəzişdik, acıdıq, kafedən gəlirik. *(Gedirlər).*

Q. S ə d a. Bunlara nə olub? Hamısı birdən acıyıb?! Ceyran, xudahafiz, mən getdim.

N o v r u z ə l i. sağ olun, mən də getdim. *(Gedir.)*

*Q.Səda getmək istərkən yenə də çalğıçılarla qarşılaşır.*

Q. S ə d a. A bala, nə tez yediniz?

G i t a r a ç ı. Bu kafedə biz istəyəndən yoxdur.

S a k s a f o n ç u. Restorana gedəsi olduq.

Q. S ə d a. Əlbəttə, burada nə var ki. O tərəfdə yaxşı restoranlar çoxdur. *(Çalğıçılar gülə-gülə gedir. Bir azdan Novruzəli ilə Q.Səda yenə qarşılaşır.)* Mən çaşmışam, bu yana getməliydim...

N o v r u z ə l i. Mən də o yana getməliydim, çaşmışam. *(Gedirlər.)*

**Pərdə açılır. Estradanın səhnəsi görünür. R ə ş i d l ə A y n a gəlir**

R ə ş i d. Ayna, onu bilirsənmi, bu günlərdə toyumuzu edib, səni evimizə köçürəcəyəm.

A y n a. Böşıa zarafatı, Rəşid.

R ə ş i d. Doğru deyirəm, Aynacan. Hara gedirəmsə xəyalımda mənimlə yanaşı gedirsən. Gülümsər gözlərini görürəm. Şən gülüşünü eşidirəm. Bəzən elə bil tellərinin ətrini də duyuram. İnan ki, sənsiz keçən dəqiqələri ömrümün ən mənasız çağları sanıram.

A y n a. Rəşid, sənə nə olub?

R ə ş i d. Daha nə olacaq?! Gecə-gündüz səni düşünürəm. Məhəbbətin ürəyimdə, adın dilimdə, baxışların gözlərimdə məskən salıb. Sanki sən əzəldən mənim üçün yaranmısan!.

A y n a. Axı, mən...

R ə ş i d. Axı sən mənim bəxtimin aynasısan. Hər sənə baxanda öz səadətimi, taleyimi görürəm. Onu bilirsənmi? *(Oxuyur,)*

Şəbnəmli güllərin, tər çiçəklərin,
Artardı qiyməti, sən olmasaydın.
Inan ki, mənimçün çox azalardı
Dünyanın ləzzəti, sən olmasaydın.
Bəxtimin aynasısan,
Unutmaram, bircə an.

Eşqim sənsiz dil açmaz,
Arzularım gül açmaz.
Qayğısız günlərdən doymazdım heç vaxt,
Sənsiz özgəsinə uymazdım heç vaxt,
Bu qədər dərindən duymazdım heç vaxt
Eşqi, məhəbbəti, sən olmasaydın.

Görürsən, Aynacan, sənə könül verəni necə ilhama gəlmişəm? Hələ bundan başqa bahara da bir mahnı bəstələmişəm.

**Rəşid pianoda çalıb oxuyur. Ayna da mahnının son sözlərini təkrarlamağa başlayır.**

A y n a. Sən gələndə bizim elə,
Gülər üzlə ildən - ilə,
Adın düşür dildən – dilə.
İ k i l i k d ə. Səfalısan, hörmətin var,
Nə gözəlsən sən, ay bahar.
A y n a. Sən gələndə çaylar daşır,
Dərələrə axır şır-şır,
Yer məxmər tək yaşıllaşır.
İ k i l i k d ə. Dağlar düzlər olur gülzar,
Nə gözəlsən sən, ay bahar.
R ə ş i d. Sən gələndə bizim vətən,
Başdan – başa olur gülşən.
Vurulmuşam hüsnünə mən.
İ k i l i k d ə. Gülüşünlə könlüm cöşar,
Nə gözəlsən sən, ay bahar.

**N o r a gəlir.**

Tə b i l v u r a n. Mayestro ilə danışıb bu mahnını orkestrimizin repertuarına salmaq lazımdır.

R ə ş i d. Bəs necə? Lap qastrola da aparacağıq. Bu gün Rəxşəndə ilə Ayna da bizə gələcəklər. Onlarla əməlli-başlı hazırlaşacağam.

N o r a. Rəşid! Ayna! Sizdən xəbər alıram, məndən nə istəyirsiniz?

A y n a. Biz istəyirik ki, heç kəs ümumi işimizi şəxsi intereslərinə qurban verməsin!

N o r a. Başa düşmürəm, şəxsi interes deyəndə nəyi nəzərdə tutursunuz? Əgər mənim oxuduqlarım zövqünüzü oxşamırsa təqsir sizdədir ki, geri qalmısınız. Estrada tamaşaçılarına yüngül melodiya mütləq lazımdır.

**Q. S ə d a gəlir.**

R ə ş i d. O yüngül melodiya adlandırdıqların bizim tamaşaçılara, dinləyicilərə yox, bir qrup zövqsüz adamlara lazımdır. Mən də xəbər alıram, səni istedadına görəmi bu orkestrə solist qoyublar?

N o r a. Bəs necə? Mən musiqi məktəbini qurtarmışam. Əlimdə diplomum var!

Q. S ə d a. *(Rəşidə)* Ceyran, haçan ondan yaxşısı gəldi ki, qəbul etmədik?

A y n a. Bəs Rəxşəndə? Altı ay əvvəl estrada təşkil olunanda konkursdan o keçməmişdi?! Qızı niyə gözüyaşlı qaytardılar?!

R ə ş i d. Özü də ali musiqi təhsilli, gözəl səsli müğənni!

N o r a. Rəxşəndənin səsi başqa, mənimki başqa.

R ə ş i d. Səhv edirsən. Səsdə də, nəfəsdə də o üstün idi. Ancaq dayı tərəfdən sən üstün çıxdın.

N o r a. *(qışqırır).* Siz nahaqdan mənim daydayımı ləkələməyin. Deyiklərinizi ona çatdıraram, uduzarsınız.

**Yol keçən Gülyanaq mübahosəni eşidib dayanır.**

Q. S ə d a. Tutaq ki, Nora yoxdur...

N o r a. Mayestro, allah eləməsin deyin!..

G ü l y a n a q. Bax, Nora, bir söz deyim acığına gəlməsin. Mən azından yeddi-səkkiz il olar səni tanıyıram. Şəhərdə harda desən işləmisən. Oxuduğun da vur-tut beş-altı importnı havadır. *(Onu yamsılayır.)* “No-ra-lə-lü“, “Də-rə-lə-lü”, “No-ra-lə-lü“,“Də-rə-lə-lü” Bir əməlli buxalter olaydı, çotkaya salaydı, görəydi ki, sən bu “No-ra-lə-lü“ lər, üçün nə qədər maaş almısan? Adamda abır həya da yaxşı şeydir!

N o r a. *(çığırır).* Siz mənim əleyhimə qruppa düzəltmisiniz?!

G ü l y a n a q. Ağız ey, nanə yarpağı tək əsdirmə özünü. Sən bəyəm böyük mətahsan əleyhinə qruppa düzəldək?! Onu bil ki, ördək qaz yerişi gedəndə öz yerişini də yadırğar.

N o r a. Mən sizinlə danışmağı da öz ləyaqətimdən aşağı hesab edirəm!

A y n a. Elə isə get layiqli adamlarla qayna-qarış.

N o r a. Mayestro, eşidirsiniz? Eşidirsiniz? Gedərəm ha?

G ü l y a n a q. *(lağla).* Sənsiz bu orkestrin nə ləzzəti?

N o r a. Baxarsınız, sonra özünüz peşman olacaqsınız...

**N o r a əsəbi halda səhnədən çıxır.**

Q. S ə d a. Nora! Gördünüz neylədiniz?! *Noranin ardınca gedir.*

S a k s a f o n ç u. Getsə bir qonaqlıq məndə! Verməyən kişi deyil. Gedək uşaqlar.

A y n a. Gedək!

**Novruzəlinin gəldiyini görən çalğıçılar uzaqlaşırlar. Gülyanaq tək qalır.**

N o v r u z ə l i. Manaflı xanım?

G ü l y a n a q. Salam.

N o v r u z ə l i. Ay əleyküməsalam... Yaxşı salam verirsən, bəs adımı neyçün demirsən?

G ü l y a n a q. *(Əzilib-büzülür).* Utanıram... bir də, bir də dedim, demədim nə təfavütü? Bilsəm ki bunun sənə isti-söyuğu var, adını da deyərəm, familiyanı da.

N o v r u z ə l i. Familiyam lazım deyil, Manaflı xanım, özünə əziyyət verib elə adımı dilinə gətirsən xoşum gələr.

G ü l y a n a q. Bunun bir əziyyəti yoxdur ki, gələn dəfə Novruzəlican deyərəm. Onda, bundan sonra sən də mənə Manaflı xanım demə. O nədir, idarə müdiri ilə danışmırsan ki?

N o v r u z ə l i. Gülyanaqka?

G ü l y a n a q. Kasız...

N o v r u z ə l i. Dünən görüşümə niyə gəlməmişdin, qadası?

G ü l y a n a q. Başa düşmürəm, nə görüş?

N o v r u z ə l i. Bəs mənim kağızlarımı oxumadın?

G ü l y a n a q. Hansı kağızlarını?

N o v r u z ə l i. Baho!.. Yoxsa gülqarışıq onları da aparıb dolçaya basmısan?

G ü l y a n a q. *(gülür.)* Deyəsən, Novruzcan, bir balaca o söz... içib gəlmisən.

N o v r u z ə l i. Manaflı xanım, atalığımın canıyçün, yox. Mən tamam ayığam. Dünən bütöv passajı gəzib üç dənə xoşuma gələn gül almışdım. Bəs sən Qüdrət Sədanın otağında əyləşib piano çalanda mən onları içəri tullamadım? Hərəsinin də yedəyinə bir namə qoşmamışdım? Güllər cəhənnəmə, o içərisinə ürəyimi bükdüyüm kağızları açıb baxmadın?!

G ü l y a n a q. Mən orda oturub gözlədim... gözlədim, sən gəlmədin, çıxıb getdim. Yəqin gülü başğa qıza atmısan.

N o v r u z ə l i. *(kənara).* Mübtədası nə pis gəldi bu məhəbbətin! Deyəsən, axı Qüdrət Sədaya eşq elan etmişəm. Gülya, ayaq üstə dayanma, əyləş.

**Yanaşı otururlar.**

G ü l y a n a q. Yaxşı, məni bura çağırmaqda xeyir ola?

N o v r u z ə l i. Əvvəli xeyirdir, bu vüsalın, sonrası zərər. Xeyir cəhəti odur ki, istəyirəm səni özümə zövcə eləyəm.

G ü l y a n a q. O nə olan şeydir?

N o v r u z ə l i. Həyat yoldaşı!.. Ömür dostu.. Ürək sirdaşı!..

G ü l y a n a q. Onu bilirsənmi mənim oğlum...

N o v r u z ə l i. Bu saat sənin tərcümeyi-halını özümünkündən də yaxşı bilirəm. Oğlun Əhmədağa Moskvada oxuyur...

G ü l y a n a q. Bəli, sabah yox birisi gün, mayın ikisində, on səkkiz yaşı tamam olur.

N o v r u z ə l i. Mayın ikisinə söz vermirəm, beşində maaş alan kimi Əhmədağanın yaş gününü keçirmək mənim boynuma. Kiçik qızın Səltənət isə hələ iki yaşlı çağadır. Onlarsız həyatın nə ləzzəti?! Mən səni o iki qoşa balanla birlikdə qəbul edirəm. Razısan, sabah göndərim adamlarımı.

G ü l y a n a q. *(nazla).* Razısan deyəndə ki,.. adam qalır nə cavab versin. Adam deyəndə ki, özün adam deyilsən? Daha gəlmisən də. Ancaq xətrinə dəyməsin, yalan –doğru eşitmişəm guya sən ailə məsələsində bir az...

N o v r u z ə l i. *(ayağa qalxır).* Möhkəm deyiləm? Ey dünya! Qulaqların kar olsun, bu sözləri eşitməyəsən, Novruzəli!

G ü l y a n a q. Nə isə qanını qaraltma. Bəs o dediyin zərər cəhət nədir?

N o v r u z ə l i. Mən bu gün sizdən ayrılıb gedirəm.

G ü l y a n a q. Hara gedirsən?

N o v r u z ə l i. BXŞMB-yə. Bakı xeyir-şər musiqiçilər bürosuna.

G ü l y a n a q. Zorla gedirsən, ya öz xoşunla?

N o v r u z ə l i. Öz xoşumla deyəndə ki... elə yarısı xoşdur, yarısı zor...

G ü l y a n a q. Təqsirin nədir?

N o v r u z ə l i. Təqsir məndə yox, səndədir, Gülya! Nə qədər ki, bu orkestrə gəlməmişdin, küllü ixtiyarım özümdə idi. İndi konsertə çıxanda baritonum sözümə baxmır. “Do” deyirəm “re” gedir, “re” deyirəm “do” gedir. Səni görəndə nə çaldığımı bilmirəm.

G ü l y a n a q. Guya mən nə çaldığımı bilirəm... Novruzcan bəlkə bu baritondan əl çəkəsən, administratordan saddan olarsan?

N o v r u z ə l i. Mən ölüm səhv eliyirsən! *(baritonu döyəcləyir).* Bu alətdə ürək qıdıqlayan elə incə sədalar var ki, yatmışı yuxudan ayıldıb, dik ayaq üstə saxlayır. İndi mən çalım, sən gör nə dəsgahı var bunun!,,

N o v r u z ə l i. Almaya bənzər sənin al yanağına,
Şaftalı, armud, hulu qurban ola.
Növcavanam, canısuluyam mən hələ,
Bu can sənə sulu-sulu qurban ola.

G ü l y a n a q. Məhəbbətin yox hüdudu, yox sonu,
Çoxdandır ki, hiss edirəm arzunu.
Ay qadası, neyçün deyirsən onu...

Bu can sənə sulu-sulu qurban ola.
N o v r u z ə l i. Barı mənim qədrimi sən bilsənə,
Nolar, əzizim, danışıb gülsənə.
Razıyam arvadların hərdən mənə,
Ərsizi qurban, dulu qurban ola...
G ü l y a n a q. Sevirsənsə burda yoxdur bir günah,
Gəl nahaqdan çəkməginən bir də ah.
Inciyərəm bir də desən sən hərgah,
Ərsizi qurban, dulu qurban ola...
N o v r u z ə l i. Çələng hörüm sənə güldən çiçəkdən,
Doymaq olmur heç arzudan diləkdən.
Novruzəli deyir sidqi ürəkdən,
Baritonu püşkəş, pulu qurban ola.

**Rəqs edirlər.**

G ü l y a n a q. Novruzəli, bu gün nə olub sənə, dil-dil ötürsən?

N o v r u z ə l i. Heç özüm də baş açmıram, bu nə sirdir! Elə bil səhər məhəbbət həbi atmışam. Hey eşqdən, məhəbbətdən danışmaq istəyirəm.

G ü l y a n a q. Danış, Novruzcan, danış ürəyin boşalsın.

N o v r u z ə l i. Səndən iki kəlmə ki, şirin söz eşitdim, ölənəcən bəsimdir. Al, bir konfet verim, məşğulat elə, ağzın şirin olsun.

G ü l y a n a q. Novruzəli, qorxuram sən BXŞMB-yə gedəndən sonra mən də gözdən uzaq, könüldən iraq olam.

N o v r u z ə l i. Atalığımın canı üçün, yox! Getsəm də ürəyimi yanında girov qoyacağam.

**Q.Səda yol keçərkən onları görür və bir anlığa ayaq saxlayır.**

Q. S ə d a. *(öz-özünə).* Baş açmıram bu nə sirdir. Birinə gül verir, birinə dil verir. *(Noruzəliyə).* Ceyran, xahiş edirəm orda işini qurtarıb, yanıma gələsən! Yanıram!

**Gedirlər. Pərdə qalxır. Musiqiçilər kabinetdə stolun başına toplaşıblar. Q. Səda ayaq üstədir.**

Q. S ə d a. Əziz, mehriban və eyni zamanda mən deyərdim ki, hörmətli yoldaşlar! Məni çətinliyə salan burasıdır ki, daha doğrusu, orasıdır ki, bu xudmani məclisdə öz nitqimə xoşagəlməz bir xəbərlə başlamalıyam...hamımızın çox gözəl tanıdığımız, doğma kollektivimizin mehriban üzvü, eləcə də mehriban kollektivimizin doğma üzvü, orkestrimizin baritonçalanı Novruzəli BXŞMB - yə

getmək istəyir. Noruzəlinin necə baritonçu olmağı hamımıza məlumdur. Bir məsələ də var ki, yoldaşın qabağına sədd çəkib, inkişafının qarşısını almağa heç kim bizə ixtiyar vermir. Novruzəli istəsəydi elə bu orkestrdə də qalıb əvvəlki qayda ilə çalardı. Lakin... əfsus... ancaq nə isə... Gəlin üzümüzü ona tutub deyək. Açın şampanskiləri.

Q. S ə d a. Sən bir mahir sənətkar,
Həm də çox hörmətlisən,
Yaxşı bilir ki, dostlar, şanlı-şərafətlisən
Hamımıza əzizsən, çünki fərasətlisən.

H a m ı. Xidmətin üçün çox sağ ol,
Çox sağ ol, Novruzəli,
Gedirsənsə yaxşı yol,
Yaxşı yol Novruzəli!

**Rəqs edirlər**

S a k s a f o n ç u. Özün gözəl bilirsən narazıyıq işindən,
Çalışginən uzaqlaş, əvvəlki vərdişindən.
Ürəyimiz ağrıyır, sənin bu gedişindən.

H a m ı. Xidmətin üçün çox sağ ol,
Çox sağ ol, Novruzəli,
Gedirsənsə yaxşı yol,
Yaxşı yol Novruzəli!

T ə b i l v u r a n. Canın başın salamat, qəm səndən uzaq olsun.
Istəyirik hər zaman kef damağın çağ olsun,
Üzümüzü ağartdın, sənin üzün ağ olsun.

H a m ı. Xidmətin üçün çox sağ ol,
Çox sağ ol, Novruzəli,
Gedirsənsə yaxşı yol,
Yaxşı yol Novruzəli!

**Hamı rəqsə qoşulur.**

Q. S ə d a. Icazə verin Novruzəliyə yazdığım xasiyyətnamədən sizin üçün bir parça oxuyum.

H a m ı. Oxuyun! Oxuyun!

Q. S ə d a. *(Oxuyur).* Kollektivimizin ən çalışqan üzvlərindən sayılan Novruzəli yoldaş öz baritonu ilə birlikdə ürəklərə girməyi çox gözəl bacarır. Onu, yəni Novruzəlinin musiqi aləti həmişə orkestrimizin ümumi ahəngi ilə bir səslənir. Novruzəlini baritonsuz, baritonu Novruzəlisiz təsəvvür etmək çox çətindir. Sanki o,

anadan məhz musiqi çalmaq üçün doğulmuşdur... və ilaxır... İndi də sözü verirəm təbilvurana. Buyur, ceyran!..

T ə b i l v u r a n. *(qalxır).* Mən fikrimi obrazlı ifadə edəcəyəm. Məsəl var, deyərlər, zurnanın səsi uzaqdan xoş gələr. Bəli, zurnanın səsi... Bir anlığa zurnanı baritonla əvəz edək... Konsertlərdə mən həmişə Novruzəliyə yaxın yerdə əyləşirəm. Məsafənin bu azlığına baxmayaraq onun baritonu mənə olmazın ləzzət verir... Bəli, ləzzət verir! Indi özünüz təsəvvür edin: O, başqa bir orkestrə gedib uzaqda çalsa, səsi bizə nə qədər xoş gələcək. Nəhayət onu demək istəyirəm ki... mən qurtardım.

Q. S ə d a. Çıxışlardan göründüyü kimi kollektivimiz Novruzəlinin sənətini qiymətləndirməklə bərabər, onun xətrini də dünyalar qədər neyləyir?.. İstəyir!.. gəlin indi də son sözü bizim sabiq baritonçalanımız  Novruzəli yoldaşın özünə verək. Görək o nə deyir...

R ə ş i d.  Mayestro, heç biz danışmadıq!

Q. S ə d a. Ceyran, bu da iclas deyil ki, durub məni tənqid eləyəsən! Otur! *(Norruzəliyə)* Qalx! Novruzəli, qulağımız səndədir!

**Novruzəli ayağa qalxır. Hamını gülümsər nəzərlərlə süzür, o, xasiyyətnaməni göstərərək, səliqə ilə büküb cibinə qoyur.**

N o v r u z ə l i. Bu mənim xasiyyətnaməm! *(Özündən məmnun halda gülür.)* Atalığımın canı üçün, bu gün siz mənə böyük xəcalət verdiniz, əslində heç danışmaq fikrində deyildim. Indi ki, belə oldu görün mən nə deyirəm?!

Bu vaxtadək doğrusu,
Bilmirdim öz qədrimi.
Istəyirmiş, sən demə,
Hamı mənim xətrimi.
And içirəm vicdana,
Getmirəm heç bir yana.
Orkestrdə qalıram,
Əvvəlki tək çalıram.

H a m ı. Necə?  Necə? Qalırsan? Orkestrdə çalırsan?

T ə b i l v u r a n. Qalır?

G i t a r a ç ı. Qalır?

S a k s a f o n ç u. Qalır?

Q. S ə d a. Qalır?

N o v r u z ə l i. Qalıram, orkestrlə də qohum oluram.

H a m ı. Bay!!!...

N o v r u z ə l i. İşləyirəm sizinlə
Mən xeyli bir zamandır.
Fikirləşib görürəm,
Bu ayrılıq yamandır.
And içirəm vicdana,
Getmirəm heç bir yana.
Orkestrdə qalıram,
Əvvəlki tək çalıram.

H a m ı. Necə? Necə? Qalırsan? Orkestrdə çalırsan?

T ə b i l v u r a n. Qalır?

G i t a r a ç ı. Qalır?

S a k s a f o n ç u. Qalır?

Q. S ə d a. Qalır?

N o v r u z ə l i. Bəli, qalıram, sabah yox birisi gün də hamınızı toyuma çağırıram.

H a m ı. Bay!!!...

*Pərdə*

## ÜÇÜNCÜ PƏRDƏ

**Pərdə qabağında. Təzə kostyum geymiş Novruzəli, hər iki əlində zənbil oxuyz-oxuya gəlir.**

N o v r u z ə l i. Tələsmişəm, baxmamışam,
Görməmişəm necə qaradır.
Dərə xəlvət, tülkü də bəy,
Gecə qaradır, cücə qaradır.
Məhəbbətin gözü kor olar,
Almamışam vecə, qaradır.
Dərə xəlvət, tülkü də bəy,
Gecə qaradır, cücə qaradır.

**Musiqi fonunda**

Bıy!.. Yoruldum, əldən düşdüm. *(Şeyləri yerə qoyub, skamyada əyləşir.)* Mən indiyəcən belə ağır yük altına girməmişdim. *(Cibindən bir kağız çıxarıb baxır.)* Qoy görüm Gülyanağın tapşırıqlarından yaddan çıxanı yoxdur ki? *(Siyahıdakıları sadalamağa başlayır.)* Almışam beş şüşə konyak, üç araq, bir də ki, əmmaməsi ağ

dörd dənə şampan, pah atonnan, gəl alış yan, nə yaman çıxdı yadımdan limmonad, çaşdırıb arvad məni, ey dad, şokolad yaxşı ki, aldım, limonad yox, su içərlər! Adə, bəs yağ!? *(Qalxıb gedərkən qarşıda pişik görüb dal-dalı çəkillir.)* Pişd-pişd! Sən ölməyəsən, bu hardan çıxdı? Adə, pişdə! Heyif deyil it, tutub bağlayalar... Pişdə,.. pişdə!.. Sahibinə lənət! Keçdi qabağımdan, allah xeyrə calasın!

**Gedir, pərdə açılır, dəhlizin zəngi çalınır. Gülyanaq gəlib qapını açanda N o v r u z ə l i hər iki əlində zənbil içəri girir.**

G ü l y a n a q. Novruzəli, gərək bağışlayasan, bu gün sənə lap əziyyət verdim

N o v r u z ə l i. Gülya, atalığımın canıyçün, bir də belə danışsan inciyərəm. Bəs kişi neyçündür? Mən dura-dura bazara sən gedəcəksən?

G ü l y a n a q. Dediyim şeylərin hamısını aldın?

N o v r u z ə l i. Hamısını. Amma yağ yadımdan çıxmışdı. Yarı yoldan qayıdıb, təzədən bazara cummuşam.

G ü l y a n a q. Görürəm, tərləmisən.

N o v r u z ə l i. İçkini bir az da çoxaltdım. Fikirləşdim, həm Əhmədağanın yaş günüdür, həm də ayıb olmasın, bizim ixtilat günümüzdır. Dedim, qoy məclisimiz təmtəraqlı keçsin. Verdiyin pulların axırıncı qəpiyinə qədər xərclədim. Məsləhət üçün sənə telefon elədim, evdən cavab verən olmadı.

G ü l y a n a q. Kişidən aliment pulu gəlmişdi, poçta getmişdim.

N o v r u z ə l i. Aldın?

G ü l y a n a q. Aldım. Yaxşı, verdiyim ünvana uşağa teleqram vurmaq yadından çıxmadı?

N o v r u z ə l i. Elə şey də yaddan çıxar? Vurdum, atasını da yandırdım.

G ü l y a n a q. Nə yazdın?

N o v r u z ə l i. Yazdım ki, gözümüzün işığı, ömrümüzün yaraşığı, Əhmədağa bala! Bu gün necə bir bayram, həm də sənin dünyaya gəlməyin münasibəti ilə evimizdə vur-çatlasındır. Sənə təbrik, dərslərinə beş! Day boq, svadba. Daha onu yazmadım ki, ananı alıb sənə ata oluram... Bilirsən... hələ kəbinimizi ki, kəsdirməmişik, özümü naməhrəm sanıram. Bu dəqiqə həyətinizə qədəm qoyanda inan ki, bir köynək ət tökdüm.

G ü l y a n a q. Əşi, arada təmiz məhəbbət olandan sonra kəbin nəyimizə lazımdır?!

N o v r u z ə l i. Orası elədir, Gülya... Ancaq mənim şakərim pisdir. ZAQS-sız yüz il də yaşasaq, sənin qolundan demirəm, heç çeçələ barmağından da tutmağa əlim qalxmaz... Başa düşürsən məni?!

G ü l y a n a q. Başa düşürəm. Darıxma. Hələ bir-iki gün bayramdır. ZAQS – bağlı olacaq. Bu axşam, inşallah, evlənməyimizi qeyd edərik. Sonra gedib rahatlıqla kəbinimizi kəsdirərik. Yaxşı, qonaqlar nə vaxt yığılacaqlar?

N o v r u z ə l i. Bir azdan gələrlər. Orkestrdəkilərin hamısına xəbər vermişəm.

G ü l y a n a q. Ağıllı iş görmüsən. Sən dincəl, mən gedim aynabənddə stolu düzəldim.

**Gedir. Novruzəli dər-divara baxır.**

N o v r u z ə l i. Novruzəli, daha sənə nə lazımdır?! Ölmək istəyirsən, ket Mazandarana. Maşallah əcəb ev –eşiyi var. Belə arvadın qoyarlar canına soyuq dəysin? Sağlıq olsun, bir azdan Gülyanağın aliment pulundan Sənubərin alimentini ayırıb göndərəcəyəm ona. Qalanını da səliqə ilə qatlayıb basacağam cibişdanıma. Ondan sonra orkestrdən çıxıb oturacağam evdə. Heç BXŞMB - yə də getməyəcəyəm. On iki ildir filəyirəm, daha bəsdir. Məndən Bethoven olmayacaq, canım sənə desin... O birisindən, adı nədir?.. Ondan olmayacaq. Dünən oturub hesablamışam. Manaflı xanımın sayeyi-mərhəmətindən, o balaca qızın hesabına düz on altı il sərasər aliment alacağam. Zatıma lənət əgər Səltənəti, atamın adını qoyduğum Atobbadan az istəyirəm! Qərəz... Sənubəri buraxıb Gülyanağı tutmaqda çox ağıllı hərəkət etmişəm.

Məhəbbətdə aləmə səs salmışam,
Mən təzə sevdada yaman çalmışam.
Saxlayacaqdır məni bu kefi çağ,
Doşab almışam, bal çıxıbdır Gülyanaq.
Mənimkidir mənzil, həyət, bağçabağ.

Gedim bir həyət-bacasına tamaşa edim. Görüm sabah maşın alsam, qaraj üçün yerim var, yoxsa yoxdur?

**Gedir. Qonaqlar iki-bir, üç-bir həyətə toplaşırlar.**

Q. S ə d a. *(yanındakılara).* Mən indi başa düşdüm ki, Novruzəli nə üçün orkestrdən ikiəlli yapışıb. Fikirləşirdim gedər BXŞMB - yə, qulağımız sakit olar. Sən demə, bunun başqa azarı varmış! Demirəm Gülyanaq pis qadındır. Xeyr!.. Axı öz aramızdır, o, Norruzəliyə bab deyil.

S a k s f o n ç u. Uzağa getmirəm, bax elə bu yaşadığımız şəhərdə sənə yüzlərlə cavan oğlan göstərərəm, nənəsi yaşında dul arvada sığınıb, onun hesabına dolanır.

G i t a r a ç ı. Bu da bir növ məhəbbət dəbidir. Bəs atası yaşında kişilərə ərə gedən qızları neyçün demirsən?

Q. S ə d a. Məlum məsələdir hər iki variantda uduzan cavanlar olacaq. Sonrakı peşmançılıq isə fayda verməyəcək.

**Rəşidlə çalğıçılar pıqqıldaşıb gülüşürlər. Q.Səda şəklənir.**

Bura baxın, siz heç düz adama oxşamırsınnız. Məni də zorla dartıb gətirdiniz. Qorxuram burada bir kələyiniz olsun. Doğrudanmı biz uşağın yaş gününə gəlmişik?

A y n a. Yaş günü olmağına yaş günüdür. Amma... *(Gülür, sözünün dalını gizlədir.)*

R ə ş i d . Mayestro, siz heç tələsməyin. Görün bir nələr olacaq?

S a k s f o n ç u. Nə əcəb Nora yoxdur?

Q. S ə d a. Arxayın ola bilərsiniz. Nora orkestrdən getdi. Sağ əli Novruzəlinin başına.

S a k s f o n ç u. Sizi şad xəbər olasınız! Mayestro, hara, nə işə gedib?

Q. S ə d a . Restoranda oxuyacaq.

G i t a r a ç ı. Axir ki, o qız öz yerini tapdı.

R ə ş i d . Nora işini yaxşı bilir.

Q. S ə d a. Ancaq onu kim əvəz edəcək?!

A y n a . Rəxşəndə!

Q. S ə d a. Demək asandır. Rəxşəndə bir həftəyə Noranın repertuarını hansı mahnılarla dolduracaq?

R ə ş i d. Gözəl Azərbaycan mahnıları ilə. Son vaxtlar Ayna ilə də, onunla da məşğul olmuşam. Rəxşəndə qastrola çıxmağa tam hazırdır.

A y n a . Mayestro, biz bura gəlməmişdən əvvəl bir daha ona qulaq asdıq. Rəxşəndə çox gözəl, çox məlahətli oxuyur.

Q. S ə d a . Sağ olun, məni nigarançılıqdan qurtardınız.

R ə ş i d. Mayestro, bizim çalışdığımız yalnız ona görədir ki, orkestrimizin ruhu, kollektivimizdəki adamların zövqü, qəlbi təmiz olsun.

Q. S ə d a. Nə isə, gedəyin içəri.

S a k s f o n ç u. Mayestro, qoy zəngi basım sonra...

**Saksafonçu zəngi basır. Gülyanaq və Novruzəli qonaqları qarşılamaq üçün həyətə çıxırlar.**

N o v r u z ə l i. Əziz qonaqlar,
Sənət dostları,
Salam əleyküm,
Qalxın yuxarı.

**Hamı ilə əl tutub görüşür.**

G ü l y a n a q. Qapım açıqdır,
Daim üzünüzə.
Xoş gəlibsiniz,
Hamınız bizə.

H a m ı. Mübarək olsun sizin, oğlunuzun ad günü,
Ömrünüzü uzatsın, ailənizin şad günü.

N o v r u z ə l i. Buyurun süfrə başına, mənim əzizlərim, bala-bala böğazını yaşladıb bir –birimizi təirfləyək.

**Yuxarı qalxan qonaqlar hədiyyələrini Gülyanağa verib, onu təbrik edirdilər. Növbə Ayna ilə Rəşidə çatanda onlar həyətdə dayanmış Novruzəliyə yaxınlaşırlar.**

A y n a. *(bağlamanı gülə-gülə ona ötürür)* Novruzəli, heç əməlli –başlı bilmədik ki, bu gün Əhmədağanın yaş günüdür... yoxsa sizin toyunuzdur. Elə bir oyuncaq alıb gətirdik. Gərək bağışlayasınız.

N o v r u z ə l i. Gədə oyuncaqlıq deyil a... yekədir.

T ə b i l v u r a n. *(Geri qayıdır).* Gülyanaq bacı, sizi telefona çağırırlar.

G ü l y a n a q. Kimdir?

T ə b i l v u r a n. Tanımadım. Bir kişidir.

**Gülyanaq və qonaqlar evə keçirlər.**

N o v r u z ə l i. *(Tək qalır)* daha üstünü vurmayım. Atalığımın canıyçün, bu saat gördüklərimə, eşitdiklərimə inanmıram. Elə bil qanadsız bir mələyəm, vaz atıb, cənnnətə düşmüşəm. *(Gülyanaq həyətə enəndə Novruzəli ona yaxınlaşır.)* Gülya, səni telefona çağıran kim idi?

G ü l y a n a q. Kişi idi. Uşağın ad gününü təbrik edirdi.

N o v r u z ə l i. Adamın allahı var, elə məndən qabaqkı ərin də... Səltənətin atasını deyirəm ey, mənim kimi qabiliyyətli adama oxşayır.

G ü l y a n a q. Sən xəriflənmisən nədir? Səltənət anasız uşaqdır. Atası da mənim qardaşımdır.

N o v r u z ə l i. Necə? Səltənət sənin qızın deyil?! Sən alimenti ona görə almırsan?

G ü l y a n a q. Yox, amma onu doğma balamdan da çox istəyirəm

N o v r u z ə l i. Sən nə danışırsan?

G ü l y a n a q. Eşitdiklərini. Alimenti mənə Əhmədağanın atası göndərirdi. İndi maşallah uşağın on səkkiz yaşı tamam olur. Bu gündən də aliment haqq-hesabı qurtardı...

N o v r u z ə l i. *(özünü itirir.)* Necə? Sən daha aliment almayacaqsan? Bıy!!! *(Səndələyib yıxılır).*

G ü l y a n a q. Ay camaat, köməyə gəlin Norruzəli əldən getdi *(Qonaqlar həyətə tökülüşürlər. Novruzəlini yıxılmış görüb heyrətlənirlər.)*

R ə ş i d . Buna nə olub? Bu niyə uzanıb?

G ü l y a n a q. Birdən birə əhvallı dəyişdi gedənin.

Q. S ə d a . *(Təbilvurana)* Ket su gətir. *(Saksafonçuya)* Sən də bir şey tap yellə! Bekar dayanma. *(Saksafonçu gedib manqalı yrlləyir)* Adə, manqalı yox ey, Novruzəlini yellə! *(Novruzəlinin nəbzini yoxlayır.)*

A y n a. Gülyanaq bacı, bir danışsana, buna nə oldu?

G ü l y a n a q. *(Gülür.)* Söhbət alimentdən düşdü. Elə ağzımı açdığımı gördüm... Dedim bu gün Əhmədağanın on səkkiz yaşı tamam oldu, alimentim qurtardı. Hə! Gərək onda tamaşa eləyəydiniz şalban kimi necə tir-tap sərildi yerə. Mən bunun qarnının ağrısını çoxdan bilirdim. O, elə güman edirdi ki. Mən alimenti Səltənətə görə alıram.

**Təbilvuran gəlib suyu Q. Sədaya verir.**

T ə b i l v u r a n. Al içirt ona, ayılsın.

**Q. Səda stəkanı Novruzəlinin boğazına boşaldan kimi o çırpınıb ayağa qalxır. Qonaqlar heyrətlənirlər.**

Q. S ə d a. *(stəkanı iyləyir).* Adə, evin yıxılsın. Sən su əvəzinə araq gətirmisən ki!

T ə b i l v u r a n. Suları gəlmir, mayestro!

G ü l y a n a q. Eybi yoxdur, şollar suyu içsəydi belə dikəlməzdi.

Q. S ə d a. Bu Novruzəlini mən yaxşı tanıyıram. O, əzrayıla da bir nömrə gəlib aradan çıxar.

R ə ş i d. Novruzəli, getdin o dünyanı gəzdin gəldin? Bir danış görək o yanlarda nə var, nə yox... Xam arvad- zad tapmadın?

**Hamı gülür. Çıxılmaz vəziyyətdə qalan Novruzəli çəkilib əzgin halda qıraqda dayanır.**

G ü l y a n a q. Lənət sənin vicdanına!

Q. S ə d a. Əgər varsa!

G ü l y a n a q. Bax, adama belə divan tutarlar. Kələyini çoxdan duymuşdum. Iç üzünü açmağa fürsət axtarırdıq. Nəhayət əlimizə məqam düşdü.

R ə ş i d. Biz bu komediyanı məclisin axırında göstərmək istəyirdik, ancaq Gülyanaq tələsdi.

G ü l y a n a q. Mən yox, Novruzəli tələsdi. *(Novruzəliyə.)* İndi get bir özündən de, bir də Əhmədağanın anası mən Gülyanaqdan!

Q. S ə d a. Sağ ol, Gülyanaq! Məni də nigarançılıqdan qurtardın. *(Gülyanaq ona yaxınlaşır).*

G ü l y a n a q. Bağışlayın, mayestro, hər şeydən xəbərdaram. O gün kafenin qabağında bir balaca... anlaşılmazlıq olub.

Q. S ə d a. Yenə gec deyil. Səhvimizi düzəldərik. Ancaq bundan sonra ikilikdə mənə mayestro demə...

G ü l y a n a q. Qüdrət Səda?

Q. S ə d a. Sədasız, ay vəfasız! *(ona yaxınlaşıb qımışır.)*

N o v r u z ə l i. Yenə dul kişi kimi qaldım arvadların əlində çakahaçəkdə!

Hardasan, ay subaylıq
Yox sənə tay, subaylıq!

Q. S ə d a. Novruzəli, sən heç bu zorbalıqda xoruz buraxmamışdın.

**Hədiyyə gətirilən xoruz oyuncağı çıxarıb Novruzəlinin qoltuğuna dürtür. Hamı gülüşür.**

H a m ı. Saf məhəbbət dar ürəkdə çağlamaz
Novruzəli, özü yıxılan ağlamaz.
Qeyrətli kəs özgəyə bel bağlamaz...
Novruzəli, özü yıxılan ağlamaz.

**Novruzəli çəkilə-çəkilə qorxaq bir tərzdə, gülüş sədaları altında uzaqlaşır.**

*P ə r d ə*